

*Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu ola gərək hər bir qələm sahibinin amalı.*

*C.Məmmədquluzadə*

# Naxçıvanda Cəlil Məmmədquluzadə muzeyləri

## NAXÇIVANDA CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİ

Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək, Mirzə Cəlil irsini və nəslini xalqa daha da yaxından tanıtdırmaq məqsədilə Naxçıvan şəhərində, onun doğulduğu və uşaqlıq illərini yaşadığı evdə ev-muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 19 iyun 1998-ci il tarixli sərəncamı olmuşdur.

31 dekabr 1998-ci il tarixdə naxçıvanlılar yeni bir hədiyyə aldılar. Cəlil Məmmədquluzadənin Naxçıvanda doğulduğu, boya-başa çatdığı evdə ev-muzeyinin açılışı oldu.

Böyük ədibin adını daşıyan ev-muzeyi milli memarlıq nümunələrimizə uyğun təmir edilmiş, 2 mərtəbəli, geniş və yaraşıqlı həyətyanı sahəyə malik tikilidə-binada yerləşir. Ekspozisiya əsasən 2 otaqdan və dəhlizdən, fond otağından, xidməti otaqlardan və geniş eyvandan ibarətdir.

Muzey-ekspozisiyanın və fondun zənginləşdirilməsi məqsədilə muzey əməkdaşları yerli əhali, alim və yazıçılar, ədəbiyyat profilli muzeylərlə yaxından əlaqələr yaratmış, Cəlil Məmmədquluzadəyə aid məişət əşyaları, sənədlər, fotolar, təsviri sənət əsərləri, "seçilmiş əsərləri", müasirlərinə, ailə üzvlərinə aid müxtəlif materiallar və s. toplamışlar. Ekspozisiyada böyük ədibin həyat və yaradıcılığının əsas dövrləri, sevdiyi və oxuduğu klassiklərin, tədqiqatçılarının əsərləri, Naxçıvan teatrında onun iştirakı ilə tamaşaya qoyulan və oynanılan əsərlər haqqında sənədlər, Azərbaycan demokratik maarifçiliyi üçün həyati əhəmiyyəti olan bir çox foto-sənədlər, müxtəlif illərin orijinal "Molla Nəsrəddin" jurnalları və digər eksponatlar vitrinlərdə, stendlərdə, guşələrdə nümayiş olunur.

Ekspozisiyanın II otağında molla nəsrəddinçilər və Cəlil Məmmədquluzadənin müasirləri M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Haqverdiyev, E.B.Sultanov, Q.Şərifov, M.T.Sidqi, Məmmədəli Sidqi, M.A.Şahtaxtılı, M.Möcüz, Ə.Əzimzadə və başqalarının portretləri, fotoları, onlar haqqında ətraflı məlumatlar verilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Naxçıvan MR-nın 75 illiyi yubileyi günlərində Naxçıvanda olarkən muzeyi ziyarət etmiş, ekspozisiya ilə tanış olmuş, muzey əməkdaşlarına öz tövsiyələrini vermişdir.

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının öyrənilməsi, ədəbi-bədii irsinin toplanması və geniş surətdə təbliğ olunması muzeyin fəaliyyətinin əsasını təşkil edir. Muzey əməkdaşları kütləvi işin müxtəlif formalarından istifadə edərək muzeydə və muzeydənkənar tədbirlər keçirirlər.

Muzeydə keçirilən mədə-

ni, elmi-kütləvi tədbirlər mətbuat, televiziya, radio vasitəsilə geniş surətdə əhalinin nəzərinə çatdırılır, ekspozisiyalar, eksponatlar haqqında məlumatlar verilir.

## CƏLİLKƏND CƏLİL MƏMMƏDQULUZADƏ XATİRƏ MUZEYİ

Xatirə muzeyi ədibin pedaqoji fəaliyyətinin 100 illiyi münasibətilə 1987-ci ildə yaradılmışdır.

Azərbaycan hökuməti Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək, 100 illik yubileyinin qeyd olunması məqsədilə 1966-cı ildə xüsusi qərar qəbul etmişdir. O cümlədən, Baş Noraşen kəndinin Cəlilkənd adlandırılması, onun vaxtilə dərs dediyi məktəbdə xatirə muzeyinin yaradılması məqsədəuyğun hesab olunmuşdur.

Xatirə muzeyinin açılışında Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri, şair və yazıçılar iştirak etmişlər.

Xatirə muzeyinin təntənəli açılışına toplaşanlar muzeyin ekspozisiyaları ilə tanış olmuşlar. Ekspozisiyada nümayiş olunan materiallar orijinallığı və tarixiliyi baxımından çox qiymətlidir. Burada "Molla Nəsrəddin" jurnalı və molla nəsrəddinçilərə həsr edilmiş materiallar, Mirzə Cəlilin ilk qələm təcrübəsi olan "Çay dəstgahı" allegorik pyesinin teatr tamaşasından foto-şəkillər və başqa materiallar nümayiş etdirilir.

Cəlil Məmmədquluzadənin tədqiqatçıları Əli Nazim, Mirzə İbrahimov, Əziz Şərif, Məsud Əlioğlu, Abbas Zamanov, Əziz Mirəhmədov, Əli Sultanlı, İsa Həbibbəyli və başqalarının da fotoları ekspozisiyada öz əksini tapmışdır.

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı, nəsil şəcərəsi, pedaqoji fəaliyyəti, teatr yaradıcılığı zəngin materiallar əsasında bədii tərtibatla əks olunur.

Cəlil Məmmədquluzadənin seçilmiş əsərləri 6 cilddə, "Ər" pyesi, "Poçt qutusu" və "Ölülər"in ilk nüsxələri fars dilində, Qulam Məmmədlinin, Abbas Zamanovun, Mirzə İbrahimovun, Əziz Şərifin, İsa Həbibbəylinin, Xeyrulla Məmmədovun, Əziz Mirəhmədovun Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığına həsr etdiyi kitabları, "Molla Nəsrəddin" jurnalının orijinal nüsxələrindən nümunələr, tədqiqatçıları haqqında materiallar vitrinlərdə, stendlərdə nümayiş etdirilir.

Cəlilkənddə Cəlil Məmmədquluzadə xatirə muzeyinin yaradılması və fəaliyyəti ədibin həyatının və yaradıcılığının geniş surətdə öyrənilməsində mühüm və əhəmiyyətli rol oynayır.

Cəlil Məmmədquluzadənin irsinin-həyatının, elmi-pedaqoji fəaliyyətinin, ədəbi-bədii yaradıcılığının öyrənilməsi və geniş surətdə təbliğ edilməsi məqsədilə muzeydə və muzeydənkənar bir sıra elmi, mədəni, kütləvi tədbirlər keçirilir. Təkcə 2003-2004-cü ildə muzeydə, Cəlilkənd orta məktəbində, Mahmud kənd və Düdəngə kənd orta məktəblərində, Şərur rayon tarix-diyarşünaslıq muzeyində, rayon incəsənət məktəblərində, mərkəzləşdirilmiş rayon kitabxanasında böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının, pedaqoji fəaliyyətinin əsas tarixləri, "Molla Nəsrəddin" jurnalının yaranması və fəaliyyəti, molla nəsrəddinçilər, Cəlil Məmmədquluzadənin teatr yaradıcılığı və başqa sahələri əhatə edən tədbirlər keçirilmişdir. Tədbirlərdə məruzə, mühazirə, söhbətlər, qəzet, jurnal, kitab materiallarından ucadan oxular, səyyar sərgilər, ekspozisiyalar nümayiş etdirilmişdir.

## NEHRƏM KƏND CƏLİL MƏMMƏDQULUZADƏ XATİRƏ MUZEYİ

Böyük mütəfəkkir yazıçı Cəlil Məmmədquluzadə 1890-1897-ci illərdə Nehrəm kəndində müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Bu illərdə kənd uşaqlarının məktəbə cəlb edilməsi, onlarla təlim-tərbiyə işləri aparılmasına xüsusi diqqət yetirməsi, çətinliklə olsa da qız uşaqlarının məktəbə, təhsilə cəlb edilməsinə nail olmuşdur. O, müəllimliklə yanaşı bədii yaradıcılıqla da məşğul olmuş, "Kişmiş oyunu" pyesini, "Danabaş kəndinin əhvalatları" povestini də burada yazmışdır. Azərbaycanda ilk muzey olaraq 1896-cı ildə Nehrəm kəndində tarix-diyarşünaslıq muzeyi Mirzə Cəlil Məmmədquluzadə tərəfindən yaradılmışdır. Muzeyə Azərbaycan tarixinin, ədəbiyyatının, mədəniyyətinin, təbiətinin, məişətinin müxtəlif dövrlərinə və sahələrinə aid materiallar-sənədlər, əşyalar toplanmışdır. Hazırki Nehrəm kəndində fəaliyyət göstərən Cəlilkənd xatirə muzeyinin tərtibində həmin materiallardan istifadə edilmişdir.

Azərbaycan hökumətinin 9 fevral 1989-cu il tarixli qərarı ilə Nehrəm kəndində Cəlil Məmmədquluzadənin Xatirə muzeyinin yaradılması məqsədəuyğun hesab edilmişdir.

Muzeyin ekspozisiyası ədibin pedaqoji fəaliyyəti, həyatı və yaradıcılığının əsas dövrləri, kənddə maarifçilik və təhsil illərinə, ailə həyatına aid zəngin materiallarla tərtib edilmişdir. Muzeydə 1000-dək eksponat mühafizə olunaraq ekspozisiyalar vasitəsilə nümayiş etdirilir.

Cəlil Məmmədquluzadə Xatirə muzeyi kəndin girəcəyində əhalisi daha çox olan meydanda Cəlil Məmmədquluzadənin vaxtı ilə dərs dediyi məktəbdə yerləşir. Muzey 3 otaq və 2 dəhlizdən ibarətdir. Xatirə muzeyi məqsədilə ayrılmış bina əsaslı surətdə təmir olunmuş, muzey üçün uyğunlaşdırılmışdır. Muzeyə eksponatların və materialların toplanmasında kənd əhalisi yaxından iştirak etmişdir.

Bir faktı da oxucuların nəzərinə çatdırmağı lazım bilirik ki, Cəlil Məmmədquluzadənin vaxtı ilə təşkil etdiyi və dərs dediyi məktəbdə, hansı ki, hazırda xatirə muzeyi kimi istifadə olunan Nehrəm kənd məktəbində 1942-1943-cü illərdə ədibin qızı Münəvvər xanım şagirdlərə rus dilini tədris etmişdir.

Ekspozisiyada ədibin pedaqoji və bədii yaradıcılığı, naxçıvanlı müasirləri, müxtəlif illərdə çap olunmuş əsərləri, ailə üzvlərinə aid geyimlər, məişət əşyaları, əsərlərinə çəkilmiş illüstrasiyalar nümayiş etdirilir. "Ölülər" əsərində Kefli İsgəndər, "Poçt qutusu"nda Novruzəli, "Danabaş kəndinin əhvalatları"nda Xudayar bəy, "Molla Nəsrəddin" obrazları və başqa təsviri sənət, heykəltəraşlıq nümunələri, "Quzu", "Usta Zeynal", "Saqqallı uşaq", "Dəllək", "Pirverdinin xoruzu" və digər qrafik illüstrasiyalarla tamaşaçı tanış olur.

Əziz Şərifin, Abbas Zamanovun, Məmməd Cəfərin, Qulam Məmmədlinin, İsa Həbibbəylinin, Əziz Mirəhmədovun C.Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı ilə bağlı elmi əsərləri, kitabları ekspoziyada öz əksini tapır, nümayiş olunur.

Muzey əməkdaşları mövcud eksponatlar haqqında muzeydə və muzeydənkənar keçirilən tədbirlər vasitəsilə tamaşaçılara məlumat verir, ədibin ədəbi-mədəni irsinin toplanması, öyrənilməsi və geniş surətdə yayılmasına çalışır, böyük Mirzə Cəlilin varisləri kimi səy göstərirlər.

Cəlil Məmmədquluzadənin ədəbi-bədii irsinin, ictimai-siyasi fəaliyyətinin toplanması, öyrənilməsi və tamaşaçılara, oxuculara geniş surətdə məlumat vermək məqsədilə Naxçıvanda yaradılan, fəaliyyət göstərən, ədibin adı ilə bağlı muzeylər öz işlərini günü-gündən daha da məzmunlu, maraqlı qurmağa çalışır, onun adına layiq fəaliyyət göstərirlər.

**Sübhü Kəngərli,**
**C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin direktoru, muzeyşünas**

*P.S. Məqalənin əvvəli jurnalımızın 2004-cü il 12-ci sayında dərc edilmişdir.*